**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№378/5** **13 avqust 2025-ci il**

**“Auditorun şəxsi kabineti” sisteminə daxil edilən şübhə doğuran məlumatların müəyyən edilməsi üzrə meyarlar barədə**

Auditorlar Palatası sədrinin 2025-ci il 15 may tarixli 10-1/3-3-17/2025 nömrəli “Auditorun şəxsi kabineti” sisteminə daxil edilən şübhə doğuran məlumatların müəyyən edilməsi məqsədilə müvafiq meyarların işlənib hazırlanması barədə” sərəncamının icrasına uyğun olaraq yaradılmış işçi qrupu tərəfindən “Auditorun şəxsi kabineti” sisteminə yanlış məlumat daxil edən auditorlara qarşı ciddi intizam tədbirlərinin tətbiqinə dair Prosedur”un 2-ci “Prosedurun həyata keçirilməsi” bölməsinin 2-ci bəndində qeyd olunan “şübhəli hallar”ın müəyyən edilməsi üçün Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış meyarların layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditorun şəxsi kabineti” sisteminə daxil edilən şübhə doğuran məlumatların müəyyən edilməsi üzrə meyarlar” bəyənilsin (əlavə olunur).

2. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərov) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, “Auditorun şəxsi kabineti” sisteminə daxil edilən məlumatlara operativ nəzarət zamanı şübhə doğuran məlumatların bu meyarlar əsasında müəyyən edilməsini təmin etsinlər.

3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, xidməti vəzifələrinin icrası zamanı “Auditorun şəxsi kabineti” sisteminə daxil edilən şübhə doğuran məlumatların müəyyən edilməsi üzrə meyarlar”dan istifadə olunmasını təmin etsinlər.

4. Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (V.Talıbov) tövsiyə edilsin ki, fəaliyyəti zamanı “Auditorun şəxsi kabineti” sisteminə daxil edilən şübhə doğuran məlumatların müəyyən edilməsi üzrə meyarlar”dan istifadə etsin.

5. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində bu qərarın və “Auditorun şəxsi kabineti” sisteminə daxil edilən şübhə doğuran məlumatların müəyyən edilməsi üzrə meyarlar”ın mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi və Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**